# Yol-nəqliyyat hadisələri ilə əlaqədar təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və yol hərəkətinin tənzimlənməsi sahəsində idarəetmənin şəffaflığının artırılması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi ölkənin avtomobil yolları şəbəkəsinin və yol infrastrukturunun bərpasına və yenidən qurulmasına güclü təkan vermiş, yeni avtomobil yollarının salınması, nəqliyyat qovşaqlarının və körpülərin tikintisi geniş vüsət almışdır. Yol hərəkətini tənzimləyən qanunvericiliyin müddəalarının pozulmasına görə məsuliyyət tədbirləri sərtləşdirilmiş, bu sahədə sui-istifadə hallarına qarşı ciddi tədbirlər görülmüş, yol patrul xidməti əməkdaşlarının sosial müdafiəsi gücləndirilmişdir. Görülən tədbirlər ölkə ərazisində yol hərəkətinin fasiləsiz və təhlükəsiz təmin edilməsində mühüm əhəmiyyət kəsb etmişdir.

Buna baxmayaraq, son zamanlar sürücülərin təhlükəsizlik tələblərini pozmaqla, o cümlədən sərxoş halda, sürət həddini aşmaqla nəqliyyat vasitələrini idarə etməsi ilə əlaqədar ağır nəticələrə səbəb olan yol-nəqliyyat hadisələrinin sayı artmışdır.

Yol-nəqliyyat hadisələrinin baş vermə səbəblərinin aradan qaldırılması, bu hadisələrlə bağlı aparılan təhqiqat, istintaq və ekspertizalar zamanı yol verilən korrupsiya və digər sui-istifadə hallarının qarşısının alınması və yol hərəkətinin tənzimlənməsi sahəsində idarəetmənin şəffaflığının artırılması məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası iki ay müddətində:

1.1. nəqliyyat vasitəsini idarə etmə hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi qaydalarının təkmilləşdirilməsi və bu sahədə şəffaflığın artırılması ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. yol-nəqliyyat hadisələrinin sərxoş halda, nəqliyyat vasitəsini idarə etmə hüququ məhdudlaşdırılmış və ya belə hüququ olmayan şəxs tərəfindən törədilməsi ağır nəticələrə səbəb olduğu hallarda cinayət məsuliyyətinin sərtləşdirilməsi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bir ay müddətində "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarının pozulmasına görə fiziki və hüquqi şəxslər tərəfindən ödənilən cərimələrdən daxil olan vəsaitin 25 faizinin Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin yol patrul xidmətini həyata keçirən və yol hərəkətinin tənzimlənməsinə cəlb olunan əməkdaşlarının aylıq vəzifə maaşlarına əlavənin verilməsi üçün istifadə qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq təsdiq etsin;

2.2. Bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi:

3.1. bu sərəncamın 2.1-ci bəndində nəzərdə tutulan vəsaitin istifadəsi zamanı şəffaflığın təmin edilməsi məqsədi ilə ciddi tədbirlər görsün və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. bir ay müddətində nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydalarının təkmilləşdirilməsi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.3. yol-nəqliyyat hadisəsi yerlərinə baxışın nəticələrinin rəsmiləşdirilməsinin qanunun tələblərinə ciddi əməl edilməklə həyata keçirilməsini təmin etsin;

3.4. yol-nəqliyyat hadisəsinin baş verdiyi ərazi videomüşahidə vasitələrinin nəzarəti altındadırsa, həmin hadisədən dərhal sonra müvafiq görüntülərin elektron daşıyıcıda təhqiqat və ya istintaq materiallarına əlavə edilməsini təmin etsin;

3.5. yol-nəqliyyat hadisələrinin törədilməsinə səbəb olan və ya şərait yaradan halların aradan qaldırılması üçün qanunla müəyyən edilmiş tədbirlərin görülməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə və Səhiyyə nazirlikləri müvafiq olaraq məhkəmə yol-nəqliyyat hadisələrinin ekspertizaları və məhkəmə-tibb ekspertizalarının qanunun tələblərinə əməl edilməklə vaxtında və obyektiv aparılmasına nəzarəti gücləndirsin, bu sahədə mövcud olan nöqsanları aradan qaldırsın və qanunun tələblərini pozan ekspertlər barəsində ciddi intizam tənbeh tədbirləri görsün.

5. Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin ki:

5.1. yol-nəqliyyat hadisələrinin təhqiqatında və istintaqında qanunların icrasına nəzarətin gücləndirilməsini və aşkar olunan pozuntuların aradan qaldırılmasını təmin etsin;

5.2. bu sərəncamın 3.3-cü və 3.4-cü bəndlərində nəzərdə tutulan hərəkətlərin təhqiqat və istintaq orqanları tərəfindən icra olunmasına nəzarət etsin;

5.3. yol-nəqliyyat hadisəsinin törədilməsi nəticəsində zərər çəkmiş şəxslərin sağlamlığına yetirilmiş xəsarətlərin ağırlıq dərəcəsi ilə bağlı məhkəmə-tibb ekspertizası rəylərinin cinayət işinin digər materialları ilə yanaşı, həmin şəxslərlə bağlı təcili tibbi yardım, tibb müəssisələrində müalicə və müayinə sənədləri ilə müqayisəli şəkildə qiymətləndirilməsini, ekspert rəylərinin əsaslılığına şübhələr olduqda təkrar ekspertizaların təyin edilməsini və qanun pozuntusuna yol verən şəxslərin məsuliyyətə cəlb edilməsini təmin etsin;

5.4. açılması təmin edilməmiş ölümlə nəticələnən yol-nəqliyyat hadisələri ilə bağlı əməliyyat-axtarış və istintaq hərəkətlərinin vaxtında, tam və hərtərəfli həyata keçirilməsinə nəzarəti gücləndirsin;

5.5. yol-nəqliyyat hadisələri ilə bağlı aparılan təhqiqat, istintaq və ekspertizalar zamanı korrupsiya və digər sui-istifadə hallarına yol verən şəxslərin məsuliyyətə cəlb edilməsini təmin etsin.

6. Azərbaycan Respublikasının Ali Məhkəməsinə tövsiyə edilsin ki, məhkəmə orqanları tərəfindən yol-nəqliyyat hadisələrinə dair işlərə baxılması ilə əlaqədar mövcud məhkəmə təcrübəsini ümumiləşdirsin və bu kateqoriyadan olan işlərə baxarkən öz qərarları ilə ədalətli məhkəmə təcrübəsini formalaşdırsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 26 dekabr 2012-ci il*

## Rayon icra hakimiyyətində

# 20 Yanvar faciəsinin iyirmi üçüncü ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilmişdir

20 Yanvar faciəsi Azərbaycan xalqının yaddaşında zaman-zaman yaşayan ən unudulmaz faciəsidir. Bu qanlı faciə yanvarın 20-də 23-cü dəfə ən hüznlü, eyni zamanda xalqın qəhrəmanlıq səhifəsi, azadlığa, müstəqilliyə aparan şanlı yol kimi qeyd ediləcəkdir.

Faciə ilə bağlı Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin sərəncamı ilə tədbirlər planı təsdiq olunmuşdur. Qəbələ Rayon İcra Hakimiyyəti başçısının 28 dekabr 2012-ci il tarixli 130 nömrəli sərəncamı ilə əlaqədar 9—20 yanvar 2013-cü il günlərində də 20 Yanvar faciəsi ilə bağlı şəhərdə, qəsəbə və kəndlərdə, o cümlədən idarə, müəssisə və təşkilatlarda ardıcıl olaraq müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur.

Tədbirlər planında 20 Yanvar hadisələri ilə bağlı müxtəlif mövzularda mühazirələrin təşkili, dəyirmi masa arxasında söhbətlər aparılması, yığıncaqlar keçirilməsi, eyni zamanda həmin günün Azərbaycanın azadlığının simvolu kimi qeyd olunması nəzərdə tutulur. Şəhər əhalisi idarə və müəssisə kollektivləri ilə birlikdə «Şəhidlər xiyabanı»da və ətraf ərazidə təmizlik və abadlıq işlərinin aparılması, keçirilən tədbirlərin yerli «Qəbələ» qəzetində dərc olunması təmin olunacaqdır.

Yanvarın 18-də respublikamızın bütün təhsil müəssisələrində olduğu kimi rayonumuzun təhsil müəssisələrində də Qanlı Yanvar faciəsinə həsr olunmuş dərslərin, habelə faciə zamanı şəhid olanların xatirəsinə həsr olunmuş dini mərasimlərin keçirilməsi, yanvarın 20-də yerli vaxtla saat $12^{00}$-da rayon ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad olunması, ardınca avtomobillərin səs siqnallarının verilməsi nəzərdə tutulmuşdur.

20 Yanvar faciəsi günü «Şəhidlər xiyabanı»na ziyarətin təşkili, bu zaman nəqliyyat vasitələrinin hərəkətinin tənzimlənməsi, nizamlanması, asayişin, təhlükəsizliyin qorunması, təcili tibbi yardım xidmətinin təşkili, faciə günlərində matəm əlaməti olaraq şəhər, qəsəbə və kəndlərdə Dövlət bayraqlarının endirilməsi, şəhidlər xiyabanında yerləşən xatirə kompleksi önünə idarə, müəssisə və təşkilatların nümayəndələri ilə birlikdə rayon icra hakimiyyəti başçısı adından əklil qoyulması nəzərdə tutulmuşdur.